BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2006

## İQTİSADİYYAT

# DÖVLƏTİN XARİCİ İQTİSADİ FƏALİYYƏTİ, ONUN TƏNZİMLƏNMƏSİNİN MEXANİZMLƏRİ VƏ DÜNYA TƏCRÜBƏSİ

**H.H.ASLANOV**
***Bakı Dövlət Universiteti***

*Dünya ölkələrinin iqtisadi inkişaf təcrübəsi göstərir ki, xarici iqtisadi əlaqələr bəşər tarixində, ölkələrin iqtisadi və sosial rifaha qovuşmasında mühüm rola malikdir. Beynəlxalq ticarətdə, o cümlədən də xarici iqtisadi əlaqələrin qurulmasında uzun illərdən bəri bir-biri ilə qarşılıqlı əlaqədə olan iki istiqamət müşahidə edilir.*

*Birinci istiqamət, beynəlxalq ticarətin liberallaşmasına doğru atılan addımlar, o cümlədən də beynəlxalq əmək bölgüsünün (BƏB) dərinləşməsinin qarşısını alan ticarət maneələrinin aradan qaldırılması, istehsal qüvvələrinin beynəlmiləlləşməsi, istehsal amillərinin sərbəst hərəkətini təmin edən transmillilləşmə, dünya xalqları tərəfindən qarşılıqlı əməkdaşlıq və qarşılıqlı mədəni mübadilə - sivilizasiyaların bir-birini dərk etməsinə yönələn sosial-iqtisadi tərkiblərin çulğalaşması, qloballaşmanın təsiri nəticəsində ümumi rifahın artırılması və bu proses və şəraitlərin ağuşunda «çırpınan» bir sıra digər qlobal, regional və lokal proseslərdir.*

*İkinci istiqamət yuxarıdakı istiqamət və proseslərlə paralel proteksionizmin güclənməsi və dərinləşməsi, «yad» kapitalın və əmtəələrin öz ölkələrinə daxil olmasını məhdudlaşdırma cəhdləri, yəni milli maraqların və mənafelərin çərçivəsində xalqların mövcudluğunun və sosial-iqtisadi «arenada» həyat uğrunda mübarizəsi fonunda təbii xüsusiyyətləri ilə əlahiddələşən obyektiv, eyni zamanda subyektiv zərurətlərdən ibarətdir.*

Real gerçəkliklər fonunda inkişaf edən beynəlmiləl ticarət-iqtisadi və maliyyə əlaqələri proteksionizmin məhdudlaşdırılmasını tələb etsə də, böhran meylləri və dünya təsərrüfat əlaqələri sisteminin hər bir iştirakçısının mövqelərinin zəifləməsi zamanı ticarətin liberallaşdırılması istiqamətində müəyyən «sapmaların» ortaya çıxmasına imkan yaradır (1, c. 114-115). İqtisadi qloballaşmanın təsiri nəticəsində son illərdə sənayecə inkişaf etmiş ölkələrin məqsədyönlü və ardıcıl təzyiq və təsirləri nəticəsində bir qayda olaraq beynəlxalq ticarətin liberallaşması meyli üstünlük təşkil etsə də, əksər ölkələr, xüsusilə də iqtisadi və siyasi güc mərkəzləri özlərinin xarici (beynəlxalq) ticarət-iqtisadi diplomatiyalarında iqtisadi amilləri (müxtəlif forma və metodlarda) proteksionist tədbirlər qismində tətbiq etməyə üstünlük verirlər.

Məhz bu mənada dövlətin rolu ön plana çıxır və dövlət öz milli maraq və mənafelərini tarazlaşdırmaq, onu xarici bazarlara «ekspansiya» etmək üçün iqtisadi dinamikanın subyektlərindən xarici iqtisadi əlaqələrin qurulması və preferensial statuslu (beynəlxalq səviyyədə) nüfuza sahib olmaq üçün çox məharətlə istifadə edirlər. Qeyd edəк кi, 80-ci illərə qədər dövlətin xarici iqtisadi əlaqələrinin qurulmasında rolu, əsasən müəyyən prioritetlərə nail olmağa yönəldilmiş iqtisadi və ticarət siyasətinin yaradılması və onun həyata keçirilməsindən ibarət idi.

İqtisadiyyatın tənzimlənməsində dövlətin rolunu ön plana çıxaran və iqtisadi fikir tarixində keynsçi istiqamətin əsasını təşkil edən ingilis iqtisadçısı C.M.Keyns 1936-cı ildə nəşr edilmiş «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» tədqiqat əsərində bu problemin əsasını qoymuşdur. Neoklassiklər kimi, keynsçilər də bazar iqtisadiyyatının tərəfdarları kimi çıxış edirdilər. Onlar iqtisadiyyatı təşkil və koordinasiya edən, o cümlədən də istiqamətləndirən qüvvə kimi bazarı - sərbəst qiymətlər mexanizmi, gəlirlər, tələb və təklif tarazlığında görürdülər. Amma bu mexanizmlərin qiymətləndirilməsi onların baxışlarını tamamilə yeni müstəvilərdə əsaslandırırdı. Məhz bu baxımdan keynsçilərin dövlətin iqtisadiyyatın idarə olunmasında, tənzimlənməsində, o cümlədən də ölkənin xarici iqtisadi əlaqələrinin tənzimlənməsində məqsədləri, rolu və funksiyası büsbütün dəyişir. Neoklassiklərin mikro-iqtisadi yanaşmalarından fərqli olaraq keynsçilər iqtisadi həyatda hadisə və meyllərin tədqiq olunmasında makroiqtisadi yanaşmaya üstünlük verirdilər.

C.M.Keyns A.Smitin vaxtı ilə formalaşdırdığı və neoklassiklərin elmi məsləkinə (kredosuna) çevrilən «görünməz əl» prinsipinə tamamilə skeptik yanaşır və qeyd edirdi ki, «ayrı-ayrı iqtisadi subyektlərin (insanların, firmaların və s.) çiçəklənməsi heç də ölkənin bütün iqtisadiyyatının çiçəklənməsi şərti ilə identik deyil və dövlətin tənzimləmə rolu və funksiyaları, bu istiqamətdə yaradılan strategiya və onun tərkib hissəsi kimi çıxış edən ölkənin iqtisadi siyasəti dövlətin maraq və mənafeləri üzərində qurulmalı, xarici iqtisadi əlaqələrin tənzimlənməsində və ticarətin inkişaf etdirilməsində dövlət bütün (əsas) mexanizmləri öz əlində əlahiddələşdirməlidir» (2, s.480-786).

XX əsrin 40-60-cı illərində Keynsin fikirlərini inkişaf etdirən onun tərəfdarları həm bazar, həmçinin də dövlət tərəfindən tənzimlənən və müasir ədəbiyyatlarda «keynsçi qarışıq iqtisadiyyat» adlandırılan iqtisadi sistemin dayanıqlı konsepsiyasını hazırladılar.

Bu konsepsiya aşağıdakı əsas müddəaları özündə ehtiva edir: təbii (qarşısıalınmaz) bazar mexanizminin qiymətləndirilməsi və dövlətin iqtisadiyyata müdaxiləsinin səbəbləri; belə müdaxilənin məqsədlərinin müəyyənləşdirilməsi; iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodları.

İqtisadi həyatın real gerçəklikləri dəfələrlə sübut etmişdir ki, əsasında funksional mexanizmləri çulğalaşdıran bazar avtomatik özü-özünü tənzimləmə xassəsinə malik deyildir. C.M. Keynsə görə,

yalnız özü-özünü tənzimləyən bazar mexanizmi ilə dövlət tənzimləyicilərinin qarşılıqlı çulğalaşması dayanıqlı iqtisadi inkişafı təmin edə bilər (3, s.53). İqtisadiyyatın dövlət tənzimlənməsini zəruri edən və şərtləndirən bir sıra amillər mövcuddur. Bu amillər çoxçalarlı olduğundan onları bu və ya digər iqtisadi problemlərin həlli istiqamətində aşağıdakı kimi əsas təyinat kriteriyaları üzərində qruplaşdırmaq olar.

1. Bazar mexanizmlərinin mənfi təsiri ilə müşahidə edilən iqtisadiyyatın bazar sektorlarının problemlərinin həlli ilə əlaqədar amillər qrupuna – qarşısıalınmaz bazar proseslərinin məhdudlaşdırılması; səmərəli məcmu tələbin, bazar konyukturasının təmin olunması; rəqabətin dəstəklənməsi, bazarın açıqlığının təmin olunması; dünya bazarında rəqabət qabiliyyətliliyin artırılması cəhdləri aid edilir.
2. İqtisadiyyatın sabitliyinin təminatı, geniş təkrar istehsal prosesinin təmin olunması ilə əlaqədar amillərə – iqtisadiyyatın inkişafının ümumi şərtlərinin yaradılması, məcmu kapitalın fəaliyyətinin tsiklik inkişafının təmin edilməsi; uzunmüddətli iqtisadi artımın, işgüzar aktivliyin stimullaşdırılması, iqtisadiyyatın optimal strukturunun formalaşdırılması; makroiqtisadi tarazlığın dəstəklənməsi; iqtisadiyyatın dövlət bölməsinin səmərəli idarəedilməsinin təmin edilməsi; özəl kapitalın nəzərindən azrentabelli sahələrin dövlət investisiyalarına olan ehtiyaclarını qarşılamaq; pul tədavülünün tənzimlənməsi; xarici iqtisadi fəaliyyəti tənzimləmək; onu koordinasiya etmək və dünya bazarında ölkə məhsullarının rəqabət qabiliyyətliliyini artırmaq; elmin, elmi-texniki tərəqqinin inkişafına münbit zəmin formalaşdırmaq və bu sahədə beynəlxalq mübadilədən səmərəli şəkildə istifadə etmək aid edilir.
3. Sosial problemlərin həlli ilə əlaqədar amillərə – gəlirlərin səmərəli təkrar bölgüsünü həyata keçirmək üçün arzuolunan mexanizm və metodlardan istifadə etmək; əhalinin tam məşğulluğunu təmin etmək, işsizliyi azaltmaq, işçi qüvvəsinin təkrar istehsal prosesində iştirakını şərtləndirən şəraiti formalaşdırmaq, intellektual mülkiyyəti qorumaq və inkişaf etdirmək, səhiyyə, təhsil və s. sahələrdə məqsədyönlü siyasət həyata keçirmək kimi tədbirlər aiddir.

Yuxarıda qeyd olunanlardan aydın olaraq müşahidə etmək mümkündür ki, amillərin səciyyələndirilməsi iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini şərtləndirir və müasir gerçəkliklər müstəvisində obyektiv zərurətə çevirməklə sözügedən üç amillər qrupunu bir-biri ilə qarşılıqlı əlaqə və hətta qarşılıqlı asılılıqda, kompleks şəkildə baxmağa sövq edir.

Hər bir ölkə üçün dövlətin iqtisadiyyata müdaxiləsini şərtləndirən çoxsaylı vasitələr, məqsədlər və dövlətin iqtisadi funksiyasını formalaşdıran amillər mövcuddur. Amma bu çoxçalarlılığa baxmayaraq, bütün ölkələr üçün dövlətin tarixi cəhətdən iqtisadi funksiyalarını ümumiləşdirən bir sıra konkret amillər mövcuddur: bunlara, iqtisadi sistemin növü; iqtisadiyyatın möv-

cud sistemdə inkişafı məqsədləri; iqtisadi potensial mülkiyyət münasibətləri sistemi; bazar münasibətlərinin inkişafı; millətlərarası münasibətlərin xüsusiyyəti və bölgələrin inkişaf səviyyəsi; ölkənin xarici iqtisadi siyasət kursu və dünya bazarına inteqrasiyası imkanları; ölkənin dünya təsərrüfatında və beynəlxalq əmək bölgüsündə yerini aid etmək olar.

Ümumiyyətlə, beynəlxalq təcrübədə dövlətin xarici iqtisadi əlaqələrə müdaxiləsinin miqyasından asılı olaraq *proteksionist ticarət siyasəti* və *azad ticarət siyasəti* ayırd edilir.

Proteksionizm - daxili bazarı xarici rəqabətdən qorumaq üçün ticarət siyasətinin tarif və qeyri-tarif alətlərinin istifadəsi yolunda mövcud olan dövlət siyasətidir.

Azad ticarət - tələb və təklifin təsiri ilə azad bazar prinsipləri əsasında inkişaf etdirilən xarici ticarətə minimal dövlət müdaxiləsini ehtiva edən dövlət siyasətidir.

Proteksionizmin ən ümumiləşdirilmiş nəzəriyyəsi avstraliyalı alim Maks Kordenin adı ilə bağlıdır. Onun təbirincə, xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi müəyyən əsasları ehtiva edir ki, bunlara:

a) Birtərəfli - ölkə hökuməti tərəfindən onun ticarət tərəfdaşları ilə heç bir məsləhətləşmələr və razılaşdırmalar aparmadan dövlət tənzimləməsi alətlərindən birtərəfli şəkildə istifadə etməsini, yəni, digər ölkələrin (ticarət tərəfdaşlarının) analoji addımlarına qarşı atılan və ticarət tərəfdaşları arasında siyasi gərginliyə gətirib çıxaran müxtəlif məhsullardan rüsumların tutulması, idxal kvotaları və s. tədbirləri;

b) ticarət tərəfdaşları arasında razılaşdırılmış ticarət siyasəti olan ikitərəfli tədbirləri; Məsələn, qarşılıqlı razılaşma əsasında hər bir ölkə (ticarət tərəfdaşları) digər tərəfin iqtisadi və digər maraqlarına ziyan vurmadan konvension rüsumların tətbiqinə başlaya bilər, bu zaman ölkələr markalanma, qablaşdırma ilə əlaqədar texniki tələbnamələrdə razılığa gələ bilər və keyfiyyət sertifikatlarının qarşılıqlı tanınması üzrə müqavilə imzalaya bilərlər və s.;

c) ticarət siyasəti çoxtərəfli razılaşmalar əsasında razılaşdırılan və tənzimlənən çoxtərəfli razılaşmalar. Bu çoxtərəfli razılaşmalara TTBS / ÜTT çərçivəsində qəbul edilmiş, Avropa İttifaqına üzv-ölkələrin qarşılıqlı razılaşmaları çərçivəsində, Avropa Azad Ticarət Assosiasiya (AATA), NAFTA və başqa inteqrasiya birlikləri çərçivəsində əldə edilmiş razılaşmaları aid etmək olar.

İqtisadçılar və siyasətçilər arasında uzun əsrlərdən bəri davam edən mübahisə - proteksionizm yaxşıdır, yoxsa azad ticarət - dilemması hələ də açıq qalmışdır.

Tarixin müxtəlif illərində xarici ticarət siyasətinin bu iki forması gah bu tərəfə (proteksionizmə), gah da o biri tərəfə (fritreydizmə) meyl etsə də heç vaxt kəskin ekstremal birmeylliliyi ilə yadda qalmamışdır. XX əsrin 50-60-cı illərində beynəlxalq ticarətdə proteksionizmdən genişmiqyaslı liberallaşmaya və azad ticarət

siyasətinə yan alsa da, 70-ci illərin əvvəlindən etibarən ölkələr öz milli bazarlarını xarici rəqabətdən qorumaq üçün daha çox tarif, xüsusi ilə də qeyri-tarif maneələrindən istifadə etməyə başlamışlar. Qeyd etmək lazımdır ki, bu meyl müasir dövrdə - iqtisadi qloballaşma və liberallaşma şəraitində də davam etməkdədir (təbii ki, müasir modifikasiyalarda).

Məlum olduğu кimi, bazar iqtisadiyyatında dövlət ölkənin təhlükəsizliyinin təmin olunması və ümummilli maraqların qorunması naminə xarici iqtisadi fəaliyyəti (XİF) tənzimləyir. XİF-in dövlət tənzimlənməsi kriteriyalarından asılı olaraq o, müxtəlif metodlar vasitəsi ilə həyata keçirilir: *iqtisadi, inzibati, tarif və qeyri-tarif.*

XİF-in tənzimlənməsinin *iqtisadi metodları* ticarət siyasətinin iqtisadi alətlərinin istifadəsinə əsaslanır ki, bunlara gömrük rüsumları, vergi (ƏDV, aksizlər və s.) və gömrük yığımları aiddir. Bu alətlərdən istifadə edərək, dövlət XİF-in subyektlərinin iqtisadi maraqlarına və uyğun olaraq onların davranışına təsir göstərir, amma bununla belə sözügedən subyektlərin tam operativ müstəqilliyinə xələl gətirmir. Bu metodlar bazar münasibətlərinin təbiətinə daha çox uyğun gəlirlər və məhz buna görə də müasir şəraitdə XİF-in tənzimlənməsində əhəmiyyətli rol oynayırlar.

*İnzibati metodlara* inzibati qaydalar, qadağalar, normativlər daxildir və bu metodun vasitəsi ilə dövlət XİF-in subyektlərinə birbaşa təsir göstərir, ictimai maraqların naminə onların fəaliyyətlərinin müxtəlif tərəflərini məhdudlaşdırır. Bir qayda olaraq inzibati metodlar bazar münasibətlərinin təbiətinə yaddır və buna görə də onların tətbiqi sferası ilbəil «sıxılmaqdadır».

*Tarif metodları* XİF-in tənzimlənməsinin müasir dövrdə iqtisadi əsasları kimi çıxış edirlər. Sözügedən metodlar birmənalı şəkildə daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmişdir. Tarif tənzimlənməsi sistemində həlledici rolu idxal rüsumları oynayırlar.

İxrac rüsumları isə bazar münasibətlərinin təbiətinə zidd olduğundan beynəlxalq və regional ittifaqlar və razılaşmalar bu rüsumların beynəlxalq ticarətdə və ölkənin xarici iqtisadi əlaqələri sistemində istifadə olunmasını tövsiyə etmirlər. Ümumən gömrük rüsumları xarici iqtisadi əlaqələrin qurulmasında və strateji istiqamətlərinin müəyyənləşdirilməsində və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında əhəmiyyətli tənzimləyici-katalizator kimi çıxış edir (4, s.281).

Dünya təcrübəsində ölkələr gömrük-tarif tənzimlənməsini tətbiq etməklə bir sıra iqtisadi, o cümlədən də tarif siyasətinin həyata keçirilməsini daha dayanıqlı və nəzarətediləbilən səviyyədə saxlamaq üçün istifadə edirlər. Bir qayda olaraq bu müdaxilənin həyata keçirilməsi üçün proteksiyanın səmərəli səviyyəsindən istifadə etmək və bununla əlaqədar olaraq tariflərin arzuolunan səviyyələrinin təsirlərinin (həm idxala, həmçinin də ixraca) müəyyənləşdirilməsi xüsusi əhəmiyyət кəsb edir.

Qeyd olunduğu kimi xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi birtərəfli, ikitərəfli və çoxtərəfli xassəli olmaqla xarici ticarətin dövlət tənzimlənməsini gömrük tariflərinə əsaslanan tarif və digər vasitələrdən ibarət qeyri-tarif alətlərinə bölür.

Bir qayda olaraq gömrük tənzimlənməsinin səmərəli səviyyəsinin hesablanması əsasında ticarət siyasətinin vacib və əhəmiyyətli qərarları və bu siyasətin təməl prinsipləri üzərində qurulan vahid xarici iqtisadi əlaqələr sistemi, o cümlədən də xarici bazarlara daxil olma, dünya bazarına inteqrasiya etmək kimi strateji prioritetlər nəzərə alınır. Yuxarıda sadalanan amillər və meyllərin təsiri nəticəsində, o cümlədən də müasir dövrdə iqtisadi qloballaşma və iqtisadiyyatın, ticarətin liberallaşmasının dərinləşdirilməsi kimi meyllər ayrı-ayrı ölkələrdə vahid milli iqtisadi siyasətin yaradılması və onun əsas prinsiplərinə əməl edilməsi yönündə tarif tənzimləməsi, xüsusi ilə də gömrük tarif tənzimləmə siyasəti obyektiv reallığın həqiqi gerçəkliklər müstəvisində həllini həm zəruri edir, həm də şərtləndirir.

Məlum olduğu kimi, beynəlxalq ticarətin əsasında çoxsaylı paradokslar cərəyan edir. XXI əsrin əvvəllərində qloballaşma prosesinin fəal surətdə ictimai həyata, iqtisadiyyata və başqa sahələrə zühur etməsi durumunda ticarət ölkələri bir-biri ilə bağlayan «düyünlərdən» ibarət ən güclü və möhkəm qüvvələrdən biridir. O, həm də təsəvvürə sığmayan zənginliyin «dayaq nöqtəsi» rolunda çıxış edir. Bununla yanaşı bəşər xalqlarının böyük əksəriyyəti bu «gəminin bortundan» kənarda qalırlar. Qlobal səviyyədə iqtisadi artım, dirçəliş və onun kökündə mövqe tutan dinamik forma olan inkişaf, xüsusi ilə də iqtisadi inkişaf kütləvi yoxsulluq və onun daha da dərinləşməsi fonunda varlılar və kasıblar arasında uçurumun yarğanı daha da dərinləşir.

«Roma klubu»nun, İİƏT-nin və Dünya Bankının mütəxəssislərinin ortaq rəyinə görə dünya ticarəti yoxsulluğun aradan qaldırılması və iqtisadi artımın təminatçısı kimi çıxış etmək imkanına malikdir, amma bu potensialın sözügedən problemlərin aradan qaldırılması istiqamətində təmərküzləşdirilməsi hələ ki, mümkün olmamışdır və real gerçəkliklər prizmasından baxıldıqda bu məqsədə nail olmamanın real imkanları yalnız səylərin və təşəbbüslərin birləşdirilməsi ilə və beynəlxalq ticarəti razılaşdırılmış (çoxtərəfli razılaşmalar əsasında) və uyğunlaşdırılmış metatrafık strategiya əsasında idarə etmək və tənzimləmək zərurəti (beynəlxalq, regional, milli səviyyələrdə; və ya çoxtərəfli, ikitərəfli, regiondaxili, birtərəfli müstəvilərdə) ön planda mövqe tutur və problemlərin həllində hakim yüksəkliklər əsasən bu «piktoqramma»nın üzərində manipulyasiya edilir.

Hesablamalar göstərir ki, əgər inkişaf etməkdə olan ölkələr dünya ixracında öz paylarını yalnız 5% artıra bilsəydilər, bu onlara 350 mlrd. dollar məbləğində gəlir gətirə bilərdi (bu rəqəm onların aldıqları yardımlardan 7 dəfə çoxdur). Afrika ölkələrinin öz növbəsində dünya ixracında öz paylarını yalnız 1 % artırmaqla əldə etdikləri 70 mlrd. dollar, bu regiona ayrılan və əsasən də Af-

rika ölkələrinin xarici borclarının silinməsinə yönəldilmiş maliyyə yardımından 5 dəfə çoxdur.

Zənnimizcə, ixracın artımından əldə edilən qazanc özünü nəinki maliyyə gəlirlərinin əldə edilməsində, o cümlədən də qlobal miqyasda, xüsusilə də inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun aradan qaldırılması və ya onun səviyyəsinin aşağı salınmasında da mühüm əhəmiyyət kəsb edir. Ölkədaxili istehsalın yaradılmasına yönəldilmiş və ümumiyyətlə yoxsul ölkələrin sosial-iqtisadi infrastrukturunun yaxşılaşdırılmasına yönəlik arzuolunan tədbirlər bu qrupda «məskunlaşmış» ölkələrin milli iqtisadiyyatlarının daha dayanıqlı sütunlar üzərində inkişafına şərait yaradır, xarici investisiyanın yönəldilməsi üçün münbit zəminlər hazırlayır, məşğulluğu təmin edir, öz növbəsində işsizliyin səviyyəsini və bununla əlaqədar sosial-iqtisadi gərginliyi aradan qaldırır və bu ölkələrin dünya bazarına və qlobal iqtisadiyyata inteqrasiyasını təmin edir.

Sənayecə inkişaf etmiş ölkələrin rəhbərləri, o cümlədən də nüfuzlu beynəlxalq təşkilatlar (BMT, ÜB, BVF, ÜTT, İİƏT, «Böyük 7-lər» və s.) öz fəaliyyətlərində yoxsulluğu aradan qaldırmaq istiqamətində prioritet tədbirlərin yerinə yetirilməsinin zəruri olduğunu işarə etdikləri bir məqamda elə həmin ölkələrin hökumətləri elə bir ticarət siyasəti həyata keçirirlər ki, bu mahiyyəti etibarı ilə dünyanın kasıb ölkələri liqasına münasibətdə iqtisadi soyğunçuluqdan başqa bir şey deyildir. İnkişaf etməkdə olan ölkələr öz məhsullarını varlı – sənayecə inkişaf etmiş ölkələrin bazarlarına çıxardıqları zaman elə tarif maneələrini dəf etməli olurlar ki, bu tarif maneələri varlı ölkələr üçün mövcud olan tarif maneələrinin səviyyəsindən bir neçə dəfə çoxdur. Belə maneələr inkişaf etməkdə olan ölkələrə ildə 100 mlrd. dollara başa gəlir ki, bu da onlara ayrılan maliyyə yardımından təxminən 2 dəfə çoxdur.

Ümumiyyətlə, şimal ölkələrinin (sənayecə inkişaf etmiş ölkələr) hökumətlərinin formalaşdırdığı xarici iqtisadi siyasət və onun ən dinamik forması kimi çıxış edən xarici ticarət siyasəti azgəlirli inkişaf etməkdə olan ölkələrə ölçüyə gəlməz dərəcədə sarsıntılar gətirir. Sənayecə inkişaf etmiş ölkələr öz ticarət siyasətlərində ən gözə çarpan ticarət maneələrindən (tarif, qeyri-tarif və inzibati maneələrdən) istifadə edərək inkişaf etməkdə olan ölkələri öz bazarlarına buraxmamaqla faktiki olaraq onların yoxsulluq çənbərindən çıxmasına maneə olurlar.

Sənayecə inkişaf etmiş ölkələr yaratdıqları inteqrasiya blokları daxilində öz məqsədlərinə nail olmaqla yanaşı ticarət meydanında «oyun qaydaları»nı beynəlxalq iqtisadi təşkilatların pərdəsi altında öz xeyirlərinə dəyişməklə inkişaf etməkdə olan ölkələrin bazarlarında və bu ölkələrin formalaşdırdıqları iqtisadi inteqrasiya bloklarında öz ixraclarını qlobal miqyaslı liberallaşma vasitəsi ilə reallaşdırırlar. Bu ciddi meylləri müşahidə etmək üçün rəqəmlərə müraciət etdiyimiz zaman real gerçəkliyin nə qədər acınacaqlı olduğunu və iqtisadi geriliyin çənbərində dövrə vuran «uçurumun» nə qədər dərin olduğunun şahidlərinə çevrilirik.

Xarici iqtisadi əlaqələrin qurulması və inkişaf etdirilməsi istiqamətində mövcud ehtiyatların məqsədyönlü (ilk növbədə ölkənin milli maraqları və mənafeləri istiqamətində) istiqamətə yönəldilməsində əlahiddə rolu, zənnimizcə, xarici ticarət modeli oynayır. Real iqtisadi proseslərin həyata keçirildiyi iqtisadi şərait, o cümlədən də bu proseslərin diktəsi üzərində qurulan müstəvi o qədər çoxçalarlı, mürəkkəb və qarşılıqlı asılılıqlar zəncirindən ibarətdir ki, bu müstəvidə baş verən dinamik inkişaf öz yeni-yeni təmayülləri ilə keçmişdə mövcud olan nəzəriyyə və konseptual baxışların kandarına çıxmaqla yeni şərtləri zəruri edir və xarici iqtisadi əlaqələrin həyata keçirilməsində obyektiv məqsədlərə nail olmanın zəruri şərtlərini obyektiv yüksəkliklərə qaldırır. Qeyd etmək lazımdır ki, ənənəvi olaraq xarici ticarət sahəsində mövcud olan yanaşmalar və o cümlədən də ənənəvi metod və metodikalar yeni proseslər və təmayüllər baxımından heç də obyektiv reallığa adekvat reaksiya verə bilmir. Bir qayda olaraq xarici ticarətin standart (ənənəvi) modelinin hazırladılmasında aşağıdakı təməl prinsiplər əlahiddələşir:

Birinci səviyyədə: açıq bazar iqtisadiyyatında fəaliyyət göstərən prinsiplər; iqtisadi artımın tipləri; milli iqtisadiyyatın istehsal potensialı,

İkinci səviyyədə: xarici ticarətin ümumqəbul edilən standart modeli aşağıdakı qarşılıqlı əlaqələrin təhlili üzərində qurulmuşdur; istehsal imkanları sərhəddi və nisbi təklif əyrisi arasında; nisbi mərkəzlər və nisbi tələb arasında; dünya tarazlıq qiymətlərinin ümumdünya nisbi tələb və təklifdə inikas olunduğu keçiddə; ölkənin rifahı və xarici ticarətdəki şərtlər və şəraitlər (ölkənin ixrac məhsullarının orta qiymətinin idxal məhsullarına orta qiymətinə olan nisbət) arasındakı nisbətlə şərtlənir.

Uçüncü səviyyədə isə bütün bu amillər və qarşılıqlı əlaqələndiricilər bu və ya digər dəqiqlikdə mövcud təhlilin təyin olunması səviyyəsini: ümumölkə, ümumdünya, ölkə və sahəvi səviyyələri müəyyənləşdirilir. Bu amillərə aşağıdakıları aid etmək olar:

ölkənin iqtisadi artımının xüsusiyyətləri; ölkə ərazisində mövcud olan ticarət şəraiti; ölkənin ticarət siyasəti; ölkədə mövcud olan tariflər və ixrac subsidiyaları; gəlirlərin yenidən bölüşdürülməsi səviyyəsi və ya gəlirlərin beynəlxalq transferti.

Məhz bu səviyyələrin müasir gerçəkliklərlə təmasından səmərəli istifadə edən sənayecə inkişaf etmiş ölkələr xarici iqtisadi əlaqələrin qurulması və onun tənzimlənməsində təkrarı kasıb ölkələr üçün hələ ki əlçatmaz olan uğurlara imza atmışlar.

Qeyd etmək lazımdır ki, bu tədbirlərin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası şəraitində xarici iqtisadi fəaliyyətin strategiyasının qurulması istiqamətində təklif olunan "Mərhələli idxaləvəzləyici siyasət" xüsusi əhəmiyyət daşıyır. Bu siyasətin istiqamətləri aşağıdakılardır:

1) ölkədaxili və regional səviyyələrdə ticarət münasibətlərini tənzimləmək, milli ixracatçıların xarici bazarlara çıxışını asanlaşdırmaq, onlara xüsusi üstünlüklər vermək və xarici ölkələrdə on-

ların müdafiəsini təşkil etmək və bununla əlaqədar olaraq onlara informasiya, məsləhət, hüquqi və xarici tərəf müqabilləri ilə ticarət-iqtisadi əməliyyatlarının həyata keçirilməsi üçün dəstək vermək, xarici ticarətdə müsbət saldonun sabitliyinin təmin olunması üzərində nəzarəti həyata keçirmək;

2) xarici iqtisadi fəaliyyətlə əlaqədar ölkənin tədiyyə balansında özünü ehtiva edən əməliyyatları tənzimləmək, milli müstəqilliyi saxlamaq şərti ilə xarici borclanmanı zamanında örtmək məqsədilə sərt nəzarəti həyata keçirmək, ölkəni xarici asılılıq böhranından xilas etmək;

3) hüquqi normalar və dövlətin beynəlxalq razılaşmaları və öhdəlikləri çərçivəsində ölkənin və onun ayrı-ayrı regionlarının xarici iqtisadi fəaliyyətində müsbət imicini formalaşdırmaq və hər cür qaçaqmalçılığın qadağan olunması və bunların üzərində sərt nəzarətin həyata keçirilməsi ilə əlaqədar həm yerli şirkətlərə, həmçinin də ölkə daxilində fəaliyyət göstərən xarici şirkətlərə qarşı birmənalı təsirlər göstərmək və onların arzuolunmaz fəaliyyətlərini dayandırmaq;

- bütün bu amillərlə əlaqədar məqsədlərin reallaşdırılması istiqamətində ölkənin milli təhlükəsizlik, o cümlədən də iqtisadi təhlükəsizliyinin təmin olunması və bu sistemlərin dayanıqlılığını təmin edə biləcək müasir üsullardan istifadə edərək zərərli hadisələrin və simptomların qarşısının alınması üçün bütün kompleks metodların tətbiq edilməsi və s.

Dünya təcrübəsi göstərir ki, əksər inkişaf etmiş ölkələrdə (ABŞ, Kanada, Avstraliya, Fransa, Almaniya və s.) xarici iqtisadi fəaliyyətin strukturu və xarici iqtisadi əlaqələrin tənzimlənməsinin metodları və mexanizmləri dəyişən şərtlərdən və şəraitlərdən asılı olaraq, bu ölkələrdən kənarda onun təsərrüfat subyektlərinin fəaliyyət rakurslarının milli maraqların dəyişməsi ilə transformasiyası prosesi baş verir və bu tənzimləmə daima dəyişir və təkmilləşdirilir.

İnkişaf etməkdə olan ölkələr xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsində xüsusi diqqəti bir məhsulun (və ya bir neçə məhsulun) bir ölkəyə ixracından yaranan təhlükələri hiss edərək, artıq 60-cı illərdən başlayaraq öz xarici iqtisadi siyasətlərində bir sıra düzəlişlər etmişlər. Amma, bu düzəlişlər kompleks səciyyə daşımadığından arzuolunan və gözlənilən məqsədlərə tamamilə cavab verməmişdir. Bu istiqamətdə fəaliyyətin əsas hədəfləri ilk növbədə ixrac bazarlarında gözlənilməsi işgüzar bazar tsikllərindən və onun inkişaf amplitudasından, o cümlədən də qlobal miqyası bürüyə biləcək böhranlardan yan qaçmaqdan ibarət olmaqla, ixracyönlü sahələrin «hədəf bazarların seçilməsində diversifıkasiya strategiyasına» üstünlük verməkdən başlamalıdır. Bir sıra inkişaf etməkdə olan ölkələr 80-ci illərdən başlayaraq öz xarici iqtisadi əlaqələrində və xarici ticarət tərəfdaşları ilə münasibətdə ixracyönlü sahələri əsasən hazır məhsullarla «silahlandırmağa» başladılar. Bu strategiyanı həyata keçirən ölkələr əsasən üç qrupda qərarlaşmışlar:

*Birinci qrup ölkələr* - Honkonq, Sinqapur, Tayvan, Cənubi Koreya, o cümlədən də inkişaf etmiş ölkələrdən - İsrail, Portuqaliya və Yunanıstan.

*İkinci qrup ölkələr* - Argentina, Braziliya, Meksika və Türkiyə.

*Üçüncü qrup ölkələrə* isə bir qayda olaraq Hindistan, Pakistan və Misir daxil edilir.

İnkişaf etməkdə olan ölkələr arasında müşahidə edilən köklü fərqliliklərə baxmayaraq bu qrupda «məskunlaşmış» ölkələrin iqtisadi geriliyi onların xarici ticarət siyasətlərində, o cümlədən də bu siyasətin tərkib hissəsi kimi çıxış edən xarici ticarət əlaqələrinin tənzimlənməsində bir sıra ümumi xüsusiyyətlərin ayırd edilməsinə şərait yaradır.

Birincisi, əksər inkişaf etməkdə olan ölkələrin xarici iqtisadi əlaqələrini tənzimləmək məqsədilə xarici ticarət siyasətini bir qayda olaraq hasiledici sənaye və aqrar sahələrə qarşı qoyulan sənaye sahələrinin stimullaşdırılması istiqamətində prioritet məqsədlərə üstünlük verməli ənənəvi hal almışdır. Əksər inkişaf etməkdə olan ölkələrin hökumətlərinin fikrincə, bu siyasət onların daha varlı ölkələrdən geri qalmasının qarşısını ala biləcək ən real üsuldur.

İkincisi, əksər kasıb ölkələr ölkədaxili nataraz iqtisadiyyatı tənzimləmək məqsədilə xarici ticarət siyasətindən istifadə etməyə cəhd etmişlər və bu istiqamətdə də xarici iqtisadi (əsasən ticarət) əlaqələri tənzimləmək üçün dövlət müdaxiləsinə üstünlük verməyə başlamışdılar.

Nəhayət, üçüncüsü, inkişaf etməkdə olan ölkələrin bir qismi (xüsusi ilə də yeni sənayeləşmiş ölkələr qrupuna daxil olan ölkələr) iddia edirlər ki, onların bu sözügedən iqtisadi geriliyi daxili (ölkədaxili) səbəblərdən daha çox ədalətsiz beynəlxalq iqtisadi qaydaların nəticəsi kimi qiymətləndirilməlidir və bu istiqamətdə ölkələrin böyük əksəriyyəti problemi bu müstəvidə həll etmək üçün beynəlxalq danışıqların, o cümlədən də nüfuzlu beynəlxalq, regional, iqtisadi təşkilatların və iqtisadi inteqrasiya birliklərinin və ticarət bloklarının, gömrük ittifaqlarının imkanlarından istifadə edərək müşahidə edilən iqtisadi geriliyi (və ya «uçurumu») aradan qaldırmaq üçün beynəlxalq birliyin səylərinin artırılmasını tələb edirlər.

Dünya iqtisadiyyatında baş vermiş yeni meyllər, təmayüllər və proseslərin fonunda xarici iqtisadi əlaqələrin tənzimlənməsi, xarici iqtisadi siyasətin qurulması və onun strateji və prioritet istiqamətlərinin müəyyənləşdirilməsi baxımından, o cümlədən də liberallaşma və qloballaşma proseslərinin təsiri nəticəsində formalaşan «vahid ticarət meydanı» müstəvisində dünya ölkələrinin təcrübəsi hər bir yeni müstəqillik qazanmış keçid iqtisadiyyatlı ölkə, o cümlədən də Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət daşıyır və bu təcrübələri və onun müsbət nəticələrindən «qidalanmaq» gözlənilməz simptomların qarşısını vaxtında almağa və dünya birliyinə daha dayanıqlı və iri addımlarla yanaşmağa, inteq-

rasiya etməyə şərait yaradar.

### ƏDƏBİYYAT

1.Хасбулатов Р.И. Мировая экономика. Том II. М., Экономика, 2001.
2.Классика экономической мысли. М., «Эксмо-пресс», 2000.
3.Албегова И.М., Емцов Р.Г., Холопов А.В. Государственная экономическая политика. М., 1998.
4.Драганова В.Г. Основы таможенного дела. М., «Экономика», 1998.
5.Bernard Hoekman. Aadity Matoo and Philip English. Development, Trade, and the WTO. The World Bank. Wash D.C. 2002.

## ВНЕШНЕЭКОНОМИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ГОСУДАРСТВА, МЕХАНИЗМ ЕГО РЕГУЛИРОВАНИЯ И МИРОВАЯ ПРАКТИКА

**Г.Г.АСЛАНОВ**

### РЕЗЮМЕ

В статье изучены сущность, значимость внешнеэкономической деятельности государства, различные направления внешнеэкономических связей и теоретические - концептуальные вопросы регулирования внешнеэкономической деятельности, а также анализируется государственное регулирование экономики.

В работе также исследованы формы регулирования внешнеэкономической деятельности государства, характерные черты национальной системы и мировая практика